

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 noyabr 2021-ci il №90 (2598) https://mod.gov.az Qiyməti 30 qəpik

*Döyüş hazırlığı*

## Vətən müharibəsi bizi daha böyük uğurlara ruhlandırır



***Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə ordu elmi əsaslarla quruldu, peşəkar kadr potensialı hazırlandı, nizam-intizam möhkəmləndirildi, həmçinin maddi-texniki təchizatın yüksəldilməsi baxımından da bir sıra zəruri tədbirlər həyata keçirildi.***

Ulu Öndərin ordu quruculuğu ilə bağlı siyasi dəst-xətti, ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən çox böyük fədakarlıqla həyata keçirilir. Dövlət başçısı ordu quruculuğu və Silahlı Qüvvələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi istiqamətində çox gərgin, səmərəli və məqsədyönlü islahatlar aparmaqdadır.

Aparılan uğurlu islahatların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib. Ordumuzun kəmiyyət və keyfiyyət baxımından komplektləşdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, hərbçilərin maddi rifah halının ildən-ilə yaxşılaşdırılması, ordu hissələrinin müasir texnika və avadanlıqlarla təchiz edilməsi, habelə beynəlxalq təcrübənin mənimsənilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər praktik nəticələrini verməkdə davam edir. Ordu quruculuğu siyasətini yeni dövrün tələbləri səviyyəsində davam etdirən Ali Baş Komandan bu məqsədlə bütün zəruri tədbirlərin həyata keçirilməsini təmin edib.

Dövlətin hərtərəfli qayğısını hər addımda hiss edən mətin əsgər və zabitlərimiz üzərlərinə düşən məsuliyyəti yetərincə dəyərləndirir, komandanlığın əmr və göstərişlərini yüksək səviyyədə yerinə yetirməyə çalışırlar. Müdafiə Nazirliyinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində bu gün düşmən işğalından azad olunan torpaqlarımızın keşiyini çəkən əsgər və zabitlərin xidməti və sosial-məişət vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu istiqamətdə işlər planlı şəkildə davam etdirilir. Bütün təminatları qaydasında olan şəxsi heyətin əsas diqqəti nizam-intizama, hərb elminin incəliklərinin dərindən öyrənilməsinə, qısaca döyüş hazırlığının yüksəldilməsinə yönəlib.

Döyüş hazırlığının yüksək səviyyədə saxlanılması zəruri məsələlərdən biridir. Çünki düşmənə qarşı mübarizədə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində şəxsi heyətin döyüş vərdişlərinin artırılması mühüm əhəmiyyət kəsb etdiyini zaman göstərdi. Vətən müharibəsində ordunun əldə etdiyi uğurların arxasında mütəmadi keçirilən döyüş hazırlığı dərsləri və təlimlər dayanır. Bütün bunlar mürəkkəb əməliyyat şəraitində zabit və əsgərlərin təcrübi bacarığının və mənəvi-psixoloji dözümlülüyünün formalaşmasına yardımçı olur.

Şəxsi heyətin döyüş hazırlığı çox mühüm anlayışdır və bu anlayış geniş tədbirlər kompleksini əhatə edir. Döyüş hazırlığı dedikdə, hərbi əməliyyatlar zamanı heyət və bölmələrin düşmənə üstün gəlməsi üçün lazım olan bilik və vərdişlərin aşılanması nəzərdə tutulur. Belə ki, mütəmadi olaraq keçirilən genişmiqyaslı təlimlər nəticəsində yüksək döyüş qabiliyyətinə və peşəkar komandir heyətinə malik olan ordumuz qısa zamanda düşməni məhv etdi. Vətən müharibəsində qazanılan tarixi Qələbə ordumuzun rəşadətinin, yüksək döyüş hazırlığının, güclü maddi-texniki bazasının olduğunu bir daha göstərdi.

Bu gün də Azərbaycan Ordusunun bütün qoşun növlərində və bölmələrində döyüş hazırlığının artırılması və Vətən müharibəsində qazanılan təcrübənin aşılanması istiqamətində mütəmadi olaraq məşğələ və təlimlər keçirilir.

Tədrisin yüksək səviyyədə təşkilinin və səmərəliliyinin artilleriya bölmələrindən birində şahidi olduq.

Hərbi hissədə olarkən döyüş maşınının heyəti ilə keçirilən məşğələni müşahidə etdikcə, bir daha əmin olduq ki, komandanlıq şəxsi heyətin döyüş vərdişlərinə yiyələnməsinə xüsusi diqqət ayırır.

Zabit Tural Quliyev döyüş maşınının incəliklərini həvəslə izah edir, əsgərlər isə maraqla komandiri dinləyirdilər.

(Ardı 2-ci səhifədə)



Ən bacarıqlı tabor komandirləri seçildi

3-cü səhifədə



Döyüş yolu - Zəfər yolu

4-cü səhifədə



Zərrə boyda qumun olsam, bəsimdir, Vətən!

5-ci səhifədə



Qalib ordunun əsgəri olmaq şərəfdir

6-cı səhifədə

## Türkiyə Milli Müdafiə naziri ilə Azərbaycan Müdafiə naziri arasında telefon danışığı olub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 16-sı Türkiyə Milli Müdafiə naziri cənab Hulusi Akarla Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında telefon danışığı olub.

General-polkovnik Z.Həsənov Ermənistan tərəfinin təxribatları və dövlət sərhədində olan vəziyyət barədə həmkarını məlumatlandırıb və qarşı tərəfin bu addımlarının qarşısının qətiyyətlə alındığını bildirib.

Cənab H.Akar öz növbəsində Türkiyənin həmişə olduğu kimi bu gün də Azərbaycanın yanında olduğunu bildirib.

## Rusiyanın Müdafiə naziri Azərbaycanın Müdafiə nazirinə zəng edib

Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu Azərbaycan-Ermənistan dövlət sərhədində yaranan vəziyyətlə bağlı Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova zəng edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, telefon danışığı əsnasında general-polkovnik Z.Həsənov iki ölkənin dövlət sərhədində Ermənistanın törətdiyi təxribatların qarşısının qətiyyətlə alındığını bildirib.

Ordu generalı S.Şoyqu hərbi əməliyyatların dayandırılması və vəziyyətin sabitləşdirilməsi üçün səylər göstərməyə hazırlığını ifadə edib.

## Ölkəmizdəki xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri dövlət sərhədindəki vəziyyət barədə məlumatlandırılıb





Noyabrın 16-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq təqdim olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, brifinq iştirakçılarına dövlət sərhədində Ermənistan tərəfinin törətdiyi təxribatlar və hazırda mövcud vəziyyət barədə ətraflı məlumat verilib.

## Vətən müharibəsi bizi daha böyük uğurlara ruhlandırır

(Əvvəli 1-ci səhifədə)

Baş leytenant Tural Quliyev vəzifə borclarını və ona təhkim olunan silahın, döyüş texnikasının xüsusiyyətlərini yaxşı bilən hərbi qulluqçunun döyüş meydanında uğur qazanacağına əminliyini bildirərək dedi: "Tabeliyimizdə xidmət edən şəxsi heyətin həm mənəvi-psixoloji, həm döyüş, həm də fiziki hazırlıq səviyyəsi yüksəkdir. Əsgərlərimizin hərbi biliklərinin artırılmasında, bacarıqlı Vətən müdafiəçiləri kimi formalaşmasında biz zabitlərin üzərinə məsuliyyətli və müqəddəs vəzifələr düşür. Azərbaycan zabitinin bu vəzifələrin öhdəsindən layiqincə gəldiyinin Vətən müharibəsində bir daha şahidi olduq. Zabitlərimiz həm döyüşü yüksək peşəkarlıqla idarə edir, həm də şəxsi heyət ilə çiyin-çiyinə ön sıralarda döyüşürdülər. Bu da əsgərlərə əlavə stimul verir, döyüş ruhunu yüksəldirdi. 44 gün davam edən İkinci Qarabağ müharibəsində rəşadətli ordumuz düşmən təxribatlarının qarşısını alaraq, Ali Baş Komandanımızın əmri ilə əks-hücum əməliyyatına başladı və işğalda olan torpaqlarımızı azad etdi. Bununla da ordu quruculuğunda ildərdir aparılan uğurlu islahatların, keçirilən dərslərin, təlimlərdə tökülən tərlərin əbəs yerə olmadığı təsdiqləndi".

Zabit sözünü bitirdikdən sonra əsgərlərlə də həmsöhbət olduq. Dərsdə fəal iştirak etmələrindən hərbi bilikləri öyrənməyə nə qədər həvəsli olduqları aydın görünürdü.

Qalib ordunun əsgəri olmaqdan qürurlandığını bildirən əsgər Cəfər Əlişov fikirlərini belə ifadə etdi. "Təlim və tədris proseslərində bütün normativlərin vaxtında və dəqiq yerinə yetirilməsi əsas prinsip kimi götürülür. Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı motoatıcıları atəş dəstəyi ilə təmin etməkdir. Onlara yardım etmək üçün bizə verilən hədəfləri sıradan çıxarmalıyıq. Dərslərdə hərbi texnika ilə necə davranmağın sirlərini yaxından öyrənirik. Mütəmadi olaraq keçirilən məşğələlər bilavasitə atəş mövqeyində aparılır. Hər birimiz koordinatlar əsasında istənilən hədəfi dəqiq zərbələr endirməklə məhv etməyi bacarırıq".



Əsgər Mircəfər Cəfərov bildirdi ki, keçirilən dərslər onlarda hərbi xidmətə marağı daha da artırır. "Heyəti olduğumuz döyüş maşınının sirlərini dərindən mənimsəyirik. Bura hər birimiz üçün bir məktəbdir. Bu məktəb bizi cəsarətli, güclü, bacarıqlı əsgərlər kimi formalaşdırır. Hərbi biliklərin və vərdişlərin qazanılmasında zabitlərimizin əməyi böyükdür. Diqqət və qayğılarını heç vaxt bizdən əsirgəməyən komandirlərimizə dərin minnətdarlığımı bildirirəm".

Hərbi xidmətə Ağsu rayonundan çağırılan Orxan Muradov əsgər yoldaşının sözlərinə dəstək olaraq keçirilən dərslər sayəsində yüksək döyüş hazırlığına malik olduqlarını qeyd etdi. "Praktiki məşğələlərimiz öncədən təyin edilən açıq ərazidə, nəzəri dərslərimiz isə sinif otaqlarında keçirilir. Heyəti olduğumuz döyüş maşınının taktiki-texniki xüsusiyyətlərini komandirlərimiz sayəsində dərindən mənimsəyirik. Uğurla davam edən əsgəri xidmətimizdə daim hərbi biliklərimizi artırır, döyüş vərdişlərini və bacarıqlarımızı təkmilləşdiririk. İstənilən döyüş əməliyyatlarında inamla iştirak etməyə hazır və qadirik. Biz öz gücümüzü və qüdrətimizi Vətən müharibəsində qazandığımız qələbə ilə bütün dünyaya göstərdik. 30 ilə yaxın işğalda qalan torpaqlarımızda bu gün şanlı üçrəngli bayrağımız dalğalanır. Bu, hər birimizin qüruru, sevinci, qələbəsidir. Xalqımız bundan sonra da əmin olsun ki, Vətənimizi göz bəbəyimiz kimi qoruyacaq, əsgər adını uca tutacaq, millətimizə daim başucalığı gətirəcəyik".

Orxanın uğurlu xidməti ilə yanaşı, qətiyyətli sözləri də onun vətənpərvərliyindən, rəşadətli ordumuza layiqli əsgər olmasından xəbər verir. Ona şərəfli xidmətində uğurlar arzulayıb, silahdaşı əsgər Əli Ağayevlə söhbətləşdim. O da rəşadətli və yenilməz ordunun əsgəri olmaqdan qürurlandığını və nümunəvi xidməti ilə ordumuza layiqli əsgər olmaq üçün hər zaman öz üzərində çalışdığını bildirdi. Əli bütün təminatlarının qaydasında olduğunu, nümunəvi xidmət etmələri üçün hərbi hissədə hər cür şəraitin yaradıldığını dedi. "Yaradılan şəraitlə yanaşı, diqqət və qayğı da yüksəkdir. Bu da mənəvi-psixoloji hazırlığımıza müsbət təsir edir. Verilən tapşırıqlara məsuliyyətlə əməl edib, döyüş hazırlığımızı daim yüksək tuturuq. Bütün məşğələlər belə maraqlı və səmərəli olur. Öyrədilənləri dərindən mənimsəyir, həm hücumda, həm də müdafiədə üzərimizə hansı vəzifələr düşdüyünü yaxşı bilirik. Bir sözlə, döyüş hazırlığımız yüksəkdir və biz istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə hazırıq".

Döyüş bacarıqlarını əməli fəaliyyətlərində də göstərən əsgərlərimizlə səmimi söhbətimiz könül xoşluğu aşılayır. Vətənə, xalqa sədaqətlə xidmət etməyin verdiyi qürurdan, müqəddəs yolun yolçusu olmaqlarından ürək dolusu danışdılar. Əminliklə deyə bilərik ki, bu gün ordu sıralarında xidmət edən bilikli və bacarıqlı, yüksək döyüş hazırlığına malik hərbi qulluqçularımız ərazi bütövlüyümüzü qorumağa, düşmən təhdidinin qarşısını asanlıqla almağa qadirdirlər.

Vətən müdafiəçiləri qeyd etdilər ki, Azərbaycan Ordusunun sıralarında xidmət etmək fəxrdir. Həqiqətən də, bu gün ordu sıralarında xidmət edən hər bir kəs yaxşı bilir ki, qüdrətli və qalib ordunun əsgəri adını daşımaq məsuliyyətli olduğu qədər də fəxarətlidir.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## "Ermənistan hərbçiləri tərk-silah edilərək saxlanılıb, xeyli sayda silah-sursat qənimət götürülüb"

Son dövrdə Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində törətdiyi təxribatlar bu gün daha da intensivləşib və genişmiqyaslı xarakter alıb. Ermənistanın hərbi birləşmələri dövlət sərhədinin bu istiqamətindəki yüksəklikləri ələ keçirməklə daha əlverişli mövqelərə yiyələnmək və hərbi üstünlüyə nail olmaq məqsədilə noyabrın 16-sı saat 11.00 radələrində qəfil hərbi əməliyyata başlayıb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov Ermənistan silahlı qüvvələrinin bölmələrinin dövlət sərhədində ölkəmizə qarşı törətdiyi genişmiqyaslı təxribatlarla əlaqədar noyabrın 16-da təşkil olunan brifinqdə deyib.

A.Eyvazov bildirib ki, Basarkeçər və Qarakilsə rayonlarında yerləşən mövqelərinə əlavə canlı qüvvə, hərbi və xüsusi texnika, o cümlədən artilleriya vasitələri cəmləşdirən Ermənistan hərbi bölmələri ordumuzun Kəlbəcər və Laçın rayonları istiqamətində mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və qumbaraatanlardan intensiv atəşə tutaraq döyüş postlarımıza hücum edib. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb. Yaralılara dərhal ilkin tibbi yardım göstərilib. Hazırda onların həyatına heç bir təhlükə yoxdur.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq məqsədilə Kəlbəcər və Laçın istiqamətində yerləşən bölmələrimiz tərəfindən dərhal təxirəsalınmaz əməliyyat tədbirləri həyata keçirilib. Əvvəlcə qarşı tərəfin hərəkəti məhdudlaşdırılıb, onun qüvvə və vasitələrinə zərər vurulub. Görülmüş qəti tədbirlər nəticəsində Ermənistana məxsus tank əleyhinə qurğu və minaatan məhv edilib. Bundan başqa, erməni hərbçilər tərk-silah edilərək saxlanılıb, xeyli sayda müxtəlif çaplı silah və külli miqdarda sursat qənimət kimi ələ keçirilib. Qarşı tərəfin təxribatlarının dəf edilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələri adekvat tədbirlər görür.

"Genişmiqyaslı təxribat törətməklə qısamüddətli üstünlüyə nail olmaq istəyən Ermənistan hərbi bölmələrinin hücumu əməliyyat-taktiki baxımından tam iflasa uğrayıb və rəsmi Yerevanın növbəti təxribat cəhdi uğursuzluqla başa çatıb.

Hazırda sərhəddə vəziyyət gərgin olaraq qalır, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Müdafiə Nazirliyi tərəfindən vəziyyətlə bağlı ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək", - deyə A.Eyvazov bildirib.

## Bakıda Azərbaycan və Almaniyanın hərbi hüquq ekspertləri arasında görüş keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Müdafiə Nazirliyi arasında imzalanan illik hərbi əməkdaşlıq planına əsasən, noyabrın 15-də Bakıda iki ölkənin hərbi hüquq üzrə ekspertlərinin görüşü keçirilib.*



"Hərbi hüquq üzrə ekspert görüşü"ndə hərbi qanunvericiliyə dair qarşılıqlı təcrübə mübadiləsi keçirilib, inzibati icraatın və xidməti araşdırmaların aparılması, hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və bir sıra digər məsələlər müzakirə olunub.

## Misir portalı Ermənistanın hərbi təxribatı haqqında xəbər yayıb

Misirin "Asia Əl Yom" portalında Ermənistan hərbi birləşmələrinin Kəlbəcər və Laçın rayonları istiqamətində Azərbaycana qarşı genişmiqyaslı hərbi təxribatı haqqında Müdafiə Nazirliyinin məlumatları yayılıb.

AZƏRTAC-a istinadla yayımlanan xəbərdə Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin bu istiqamətindəki yüksəklikləri ələ keçirmək və hərbi üstünlüyə nail olmaqla daha əlverişli mövqelərə yiyələnmək məqsədilə noyabrın 16-sı saat 11:00 radələrində qəfil hərbi əməliyyata başladığı, düşmənin döyüş aktivliyinin qarşısını almaq məqsədilə Kəlbəcər və Laçın istiqamətində yerləşən birlik və qüvvələr tərəfindən dərhal təxirəsalınmaz əməliyyat həyata keçirildiyi qeyd olunub. Bildirilib ki, Azərbaycan Ordusu qarşı tərəfin hərəkətini məhdudlaşdırıb, onun qüvvə və vasitələrinə zərər vurulub. Görülmüş qəti tədbirlər nəticəsində erməni hərbçiləri tərksilah edilərək saxlanılıb, xeyli sayda müxtəlif çaplı silah və külli miqdarda sursat qənimət kimi ələ keçirilib.

Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, erməni hərbi qulluqçuları qorxu və təşviş içində mövqelərini tərk edib, düşmənin şəxsi heyəti arasında çaxnaşma müşahidə edilir.

# Ən bacarıqlı tabor komandirləri seçildi

***"N" hərbi hissəsində Quru Qoşunlarının 2021-ci il üçün hazırlıq planına əsasən "Ən yaxşı motoatıcı (dağatıcı) tabor komandiri" adı uğrunda yarış keçirildi. Yarışlarda müxtəlif hərbi hissə və birləşmələrdən zabitlər iştirak edirdilər. İştirakçılar rəhbəredici sənədlərin tələbləri üzrə nəzəri biliklərin yoxlanılması, taktiki tapşırığın həlli, atəş, sıra və fiziki hazırlıqlar üzrə mərhələlərdə mübarizə apardılar. Zabitlər yarışın qalibi olmaq üçün bütün bacarıq və təcrübələrini səfərbər etdilər.***



Üç gün davam edən yarış maraqlı anlarla yadda qaldı. Ən yaxşı tabor komandiri adını qazanmaq üçün zabitlər mərhələlərdən uğurla keçməyə çalışırdılar. Komissiya üzvləri yarışın gedişində iştirakçıların bütün hərəkətlərinə ciddi fikir verir, hər mərhələnin qaydalara uyğun olaraq keçirilməsini təmin edirdilər.

Sonda komissiya üzvləri iştirakçıların qazandıqları balları hesablayaraq nəticələri elan etdilər. Ən yaxşı motoatıcı tabor komandiri yarışında hazırlığı daha yüksək olan kapitan Gülməmməd Rzazadə 1-ci, mayor Nail Kərimov 2-ci, mayor Tapdıq İbrahimov 3-cü yerə layiq görüldülər.

Yarışın qalibləri ilə görüşüb söhbət etdik. Söhbət zamanı zabitlərin yarış barədə təəssüratlarını da öyrəndik. Onların fikirlərini oxucularımıza çatdırırıq.

### İgidlik və şücaətə görə...

"Ən yaxşı motoatıcı (dağatıcı) tabor komandiri" adı uğrunda yarış zamanı bütün gücünü səfərbər edərək birinci olan kapitan Gülməmməd Rzazadə ilk müsahibimiz oldu. Əvvəlcə özü haqqında məlumat verən tabor komandiri bildirdi ki, Neftçala rayonu Bankə qəsəbəsində anadan olub. Kiçik yaşlarından zabit olmaq qərarına gələn Gülməmməd Rzazadə 2007-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, 2010-cu ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2014-cü ildə leytenant hərbi rütbəsi ilə "N" hərbi hissəsində xidmətə başlayıb. Gənc zabit xidmət illərində daim Ali Baş Komandanın döyüş əmrini səbirsizliklə gözləyib. Kapitan Gülməmməd Rzazadə 2020-ci il sentyabrın 27-də başlanan əks-hücum əməliyyatına Suqovuşan kəndi istiqamətindən qatılıb. Vətən müharibəsində yüksək peşəkarlıqla düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadətlə vuruşub, Suqovuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik və mərdlik nümunəsi göstərdiyinə görə kapitan Rzazadə Gülməmməd Fərid oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

- Çox sevincliyəm ki, qalib oldum, - yarışın qalibi kapitan G.Rzazadə bizimlə təəssüratlarını bölüşdü. - Burada iştirak edən zabitlərin hamısı təcrübəli və biliklidir. Bütün mərhələlərdə güclü rəqabət olmasına baxmayaraq qalib olmağım mənim üçün qürurvericidir. İnanıram ki, bu yarışda əldə etdiyim yeni biliklər də mənə xidmətimdə yardımçı olacaq, Vətənimizə layiqli əsgərlərin formalaşmasında vacib rol oynayacaq. Bu cür yarışlar təkamül və inkişaf üçün əsas amillərdəndir. Ona görə də biz zabitlər bu yarışlarda həmişə həvəs və maraqla iştirak edirik.

### Gələcək xidmətində daha da böyük uğurlar qazanacaq

10 yanvar 1987-ci ildə Naxçıvan şəhərində dünyaya göz açan mayor Nail Elsevər oğlu Kərimov İslam Səfərli adına orta məktəbdə təhsil alıb. O, 2001-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə, 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Təhsil ocaqlarında hərbi biliklərə dərindən yiyələnib.

Mayor Nail Kərimov Vətən müharibəsinin iştirakçısıdır. Erməni qəsbkarlarına qarşı cəsarət və rəşadətlə vuruşub.

- İkinci Qarabağ müharibəsi başlananda Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsil alırdım, - deyə mayor Nail Kərimov söhbətə başladı. - Noyabrın 1-də təhsilimizi yarımçıq qoyub erməni işğalçıları ilə döyüşə yollandıq. Vuruşmaq üçün bizi Qubadlı rayonu istiqamətinə göndərdilər. Artıq düşmən Cəbrayıldan, Füzulidən, Zəngi-



landan və başqa bölgələrimizdən qovulmuşdu. Qubadlı rayonunun Yuxarı Xocamusalı kəndində oldu. Daha sonra Aşağı Xocamusalı, Tarovlu kəndlərini də gərgin döyüşlər nəticəsində ermənilərdən azad etdik. Burada gördüklərimizdən dəhşətə gəldik. Düşmən kəndlərdə daşı-daş üstə qoymayıb, ağaclar kəsilib, evlər yerlə-yeksan edilib. Hər tərəfdə erməni qəsbkarlarının qanlı izi qalıb. Vətən müharibəsi bir daha göstərdi ki, kim təcrübəli, kim güclü və hazırlıqlıdırsa, o da döyüşlərdə qalib gəlir. Biz güclü olduğumuza görə İkinci Qarabağ müharibəsindən qalib çıxdıq. Yarışlardan danışan zabit deyir ki, belə səmərəli müsabiqələrin keçirilməsi çox vacibdir. Çünki biz bu yarışlarda hazırlığımızın hansı səviyyədə olduğunu aydın şəkildə görürük. Bilik və bacarıqlarımızı daha da təkmilləşdiririk. Ona görə bu cür yarışların keçirilməsi vacibdir. Düzdür, mən bu yarışın ikincisi oldum. Ümid edirəm ki, gələcək yarışlarda daha da böyük uğurlar qazanacam.

Söhbət zamanı onu da öyrəndik ki, mayor Kərimov Nail Elsevər oğlu Vətən müharibəsində göstərdiyi igidliyə görə "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarına layiq görülüb. İnanırıq ki, bacarıqlı zabit Nail Kərimov özünün də dediyi kimi, gələcək xidmətlərində daha da böyük uğurlar qazanacaq.

### Təcrübə həmişə uğur qazandırır

Gərgin keçən yarışın üçüncüsü mayor Tapdıq Niftulla oğlu İbrahimov 1987-ci il avqustun 6-da Salyan rayonunun Xələc kəndində anadan olub. Təhməz Şirinov adına Xələc kənd orta məktəbində təhsil alıb. 2005-ci ildə orta təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Burada motoatıcı ixtisasına yiyələnib. 2009-cu ildə hərbi təhsilini başa vuraraq "leytenant" hərbi rütbəsi alıb. 2010-cu ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ixtisasartırma kursu keçib. Elə həmin il taqım komandiri kimi cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmətə başlayıb. Müxtəlif hərbi hissə və birləşmələrdə xidmət edən mayor Tapdıq İbrahimov hazırda tabor komandiridir.

Zabit Vətən müharibəsinin od-alovundan keçib. İkinci Qarabağ müharibəsinin ilk günlərindən tabor əks-hücum əməliyyatlarına atılıb. Onun üçün ən ağır və gərgin döyüşlərdən biri Hadrut qəsəbəsi uğrunda olub.

- Ermənilər Hadrut istiqamətində çox ciddi müqavimət göstərirdilər, - deyə mayor Tapdıq İbrahimov iştirakçısı olduğu döyüşlərdən söz açdı. - Müqavimət nə qədər güclü olsa da, biz hərbçilər əbədi-əzəli torpaqlarımızı düşməndən azad etməliydik. Onlar Azərbaycan əsgərinin gücü qarşısında dayana bilməyib geri çəkildilər. Hadrut qəsəbəsi işğalçılardan azad



olundu. Bundan sonra Xocavənd rayonunun Tuğ, Yuxarı Veysəlli, Akaku, Domu, Sığnaq və başqa kəndlərini də işğalçılardan təmizlədik. Sonra döyüşlərimizi Qarabağın tacı olan Şuşa istiqamətində davam etdirdik. Gərgin keçən əməliyyatlardan sonra Vətənimizin gözəl guşəsi olan Şuşa da erməni işğalçılarından azad olundu. Torpaqlarımızı yağılardan təmizlədikcə sevincimiz aşıb-daşırdı. Addım-addım torpaqlarımızı erməni işğalçılarından təmizləyirdik. Arxada qalan illər ərzində biz keçirilən təlim-məşqlərdə xeyli döyüş təcrübəsi qazandıq. Zəngin döyüş təcrübəsi isə həmişə zabitə, əsgərə uğur qazandırır. Döyüş təcrübəmiz yüksək olduğuna görə biz Vətən müharibəsində qalib olduq. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında böyük hünər və qəhrəmanlıqlar göstərdik. Vətən müharibəsindən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallara layiq görüldüm.

Mayor Tapdıq İbrahimov "Ən yaxşı motoatıcı tabor komandiri" yarışı haqqında da təəssüratını bizimlə bölüşərək dedi ki, belə birinciliklər bizim təcrübə və səriştəmizi daha da artırır. Yarışlarda qazandığımız bilik və döyüş vərdişlərini gələcək məşğələlərdə şəxsi heyətə də aşılayacağıq.

Yarışın qaliblərini zabit yoldaşları da təbrik etdi, onlara yeni-yeni uğurlar arzuladılar. Biz də öz növbəmizdə bu təbriklərə qoşuluruq.

**Leytenant
İbrahim MƏMMƏDBƏYOV,
Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"**

Təlim

# Döyüş yolu - Zəfər yolu



*Təlimləri izləmək istər-istəməz insanda döyüş ovqatı yaradır, onu zəfərə, qələbəyə kökləyir. İstehkamçıların təlim-məşqlərini izlədikcə xoş hisslər keçirirdik. Zirehli texnikaların gurultusu geniş çöllərə yayılırdı. Təcrübəli, peşəkar hərbçilər üzərlərinə düşən tapşırıqları cəld və çevik hərəkətlərlə yerinə yetirirdilər. Gördüyümüz bu mənzərələr, sözün həqiqi mənasında, ovqatımıza ovqat qatırdı.*

Vətən müharibəsində hərbi istehkamçılar da böyük hünər və rəşadət göstərdilər. Üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldilər. Onlar zabit və əsgərlərimizin düşmən üzərinə əks-hücuma keçmələri üçün işğalçıların 30 ildə hazırladıqları istehkamları, keçilməz hesab olunan sədləri darmadağın etdilər. Hərbçilərimizin düşmən mövqelərinə maneəsiz hücuma keçmələrinə şərait yaratdılar. Nə qədər çətin olsa da, hərbi istehkamçılar düşmən üzərində qələbəmiz naminə, torpaqlarımızın işğaldan və işğalçılardan azad olunmasına görə bu mühüm tapşırığın öhdəsindən bacarıqla gəldilər. Qələbənin, Zəfərin qazanılmasını təmin etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışında düşmən istehkamlarının dağıdılmasından bəhs edərək deyib: "Ermənilərin 30 il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilərik ki, biz istədiyimizə az itkilərlə nail olduq".

Düşmən maneələrinin darmadağın edilməsində hərbi istehkamçılar böyük rəşadət göstərdilər. Vətən müharibəsindən geriyə zəfərlərlə, qələbələrlə dönən mühəndis-istehkamçılar yenə də təlim keçir, döyüş hazırlıqlarını artırırlar.

Şəxsi heyətin təlimini yaxından izləyən zabit Emil Əmiraslanovla söhbət etdik. Təlimin gedişi, şəxsi heyətin hazırlığı ilə maraqlandıq. Zabit dedi ki, Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq mühəndis qoşunlarının hərbi hissə və birləşmələrində təlimlər keçirilir. "Hərbi hissəmizin istehkamçıları da bu təlimlərə qatılıblar. Zabit və əsgərlərimiz təlim-məşqlər zamanı peşəkarlıqlarını, bacarıqlarını daha da artırır, xidmətdə uğurlar qazanır, verilən döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirirlər.

Bu gün təlimə qatılan zabit və əsgərlərin əksəriyyəti Vətən müharibəsinin iştirakçılarıdır. Onlar 44 gün davam edən İkinci Qarabağ müharibəsində üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Əks-hücum əməliyyatları zamanı qoşunlarımızın düşmən üzərinə hücuma keçməsi üçün yollar açdılar, "körpü"lər saldılar. Mühəndis-istehkamçıların açdığı bu yollar sonda bizi Zəfər yoluna qovuşdurdu.

Müharibədən qələbə ilə geri dönən zabit və əsgərlərimizin üzü gülürdü. Xidmətə yeni çağırılan gənc əsgərlər müharibədən qələbə ilə dönənləri gördükcə qürur hissləri keçirirdilər. Zabit və əsgərlərimizin döyüş hazırlığının yüksək səviyyədə olması bizi çox sevindirir. İnanırıq ki, hazırlığı belə yüksək olan istehkamçılar bundan sonra da xidmətdə uğurlar qazanacaq, ən çətin tapşırıqların öhdəsindən bacarıqla gələcəklər".



Fasilə zamanı məşğələnin rəhbəri kapitan Qurban Qurbanov dedi ki, bölməmizin zabit və əsgərləri Vətən müharibəsində yaxından iştirak etdilər. "Biz istehkamçılar üzərimizə düşən tapşırıqların öhdəsindən bacarıqla gələrək ermənilərin müdafiə qurğularını, qurduqları "keçilməz" sədləri darmadağın etdik. İşğalçılar qarşımızda çox dayana bilmədilər. Qoşunlarımızın irəliləməsi üçün tələb olunan bütün tapşırıqları bacarıqla yerinə yetirdik. Döyüşlərdən geriyə zəfərlə döndük. Qazanılan uğurlar nə qədər yüksək olsa da, bizi arxayınlaşdırmır. Gördüyünüz kimi, bu gün yenə də təlimlərdəyik, yenə də döyüş hazırlığımızı artırırıq, yenə də hərbi bilik və vərdişlərə yiyələnirik. Yaxşı dərk edirik ki, döyüş hazırlığımız nə qədər yüksək olarsa, uğurlarımızın da sayı o qədər çox olacaq. Hərbi qulluqçularımızın döyüş yolu Cəbrayıldan, Füzulidən, Qubadlıdan və başqa bölgələrdən keçdi. Harada, hansı bölgədə olduqsa, orada döyüş tapşırıqlarını peşəkarcasına, cəsarətlə, hünərlə yerinə yetirdik. Həm döyüşlərdə, həm də xidmətdə fərqlənən baş gizir Musa Nəzərovun, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Əhliman Gülmalıyevin, çavuş Tural Feyzullayevin, kiçik çavuş Rəvan Qurbanovun, kiçik çavuş Elşən Orucovun, əsgər Famil Fətullayevin və başqalarının adlarını çəkmək istərdim. Bu hərbi istehkamçılar həm döyüşlərdə, həm də təlimlərdə üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Belə hərbçilərimizlə fəxr edirik".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Famil Fətullayev iştirakçısı olduğu döyüşlərdən söhbət açaraq dedi ki, Qubadlı rayonu uğrunda gərgin döyüşlər gedirdi. "Erməni işğalçıları Həkəri çayı üzərindəki körpünü dağıtdıqlarına görə qoşunlarımızın o biri sahilə keçməsi çətinləşdi. Düşmən irəlilədiyimiz istiqamətə dayanmadan atəş açırdı. Atəşə, üstümüzə yağan güllələrə baxmayaraq, idarə etdiyim döyüş maşınını Həkəri çayının sahilinə sürdüm. Qısa müddət ərzində çayın üzərinə "körpü" saldıq. Qubadlı istiqamətinə gedən ordu hissələrimiz bu "körpü"dən çox rahatca keçib düşmən üzərinə şığıdılar. Bu gün isə təlimlərdəyik. Təlimlərdə çox fəal iştirak edir, döyüş hazırlığımızı artırırıq".

Fasilə başa çatdıqdan sonra məşğələ yenə də öz axarı ilə davam etdi. Təlim meydanından geriyə xoş hisslərlə döndük. Dərələrin qoynuna tərəf uzanan torpaq yollar bizi ağuşuna aldı. Bu tozlu-torpaqlı yolların arxasından Şuşaya doğru uzanan Zəfər yolu görünürdü. O yol ki, hərbi istehkamçılar onu cəsarətlə, hünərlə və qəhrəmanlıqla keçiblər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**16 noyabr 2021 10:48**

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 15-i saat 16.15-dən etibarən noyabrın 16-sı saat 04.30-dək Basarkeçər rayonunun Əzizli, Zərkənd, Aşağı Şorca, Dərə, Göysu, Pəmbək, Şəmşəddin rayonunun Çinarlı, Mosesqex, Yuxarı Mehrab, Ayqepar, Qulalı və Çəmbərək rayonunun Cil yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə, Barmaqbinə, Gədəbəy rayonunun Qalakənd, Daryurd, Novoivanovka, Qaravəlilər, Tovuz rayonunun Ağbulaq, Ağdam, Qaralar, Qoşa, Koxanəbi, Hacallı, Əlibəyli, Əsrik Cırdaxan və Ağstafa rayonunun Köhnəqışlaq yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı atıcı silahlardan istifadə etməklə intensiv atəşə tutub.

Qarşı tərəfin döyüş aktivliyinin qarşısını almaq məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Hazırda əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**16 noyabr 2021 13:17**

Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı genişmiqyaslı təxribat törədib.

Ermənistanın hərbi birləşmələri dövlət sərhədinin bu istiqamətindəki yüksəklikləri ələ keçirmək və hərbi üstünlüyə nail olmaqla daha əlverişli mövqelərə yiyələnmək məqsədilə noyabrın 16-sı saat 11.00 radələrində qəfil hərbi əməliyyata başlayıb.

Basarkeçər və Qarakilsə rayonlarında yerləşən sərhəddöyüş mövqelərinə əlavə canlı qüvvə, hərbi və xüsusi texnika cəmləşdirən Ermənistan hərbi bölmələri Azərbaycan Ordusunun Kəlbəcər və Laçın rayonlarındakı döyüş postlarına hücum edib.

Qarşı tərəf Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı atıcı silahlar və qumbaraatanlardan intensiv atəşə tutaraq döyüş postlarımıza atəşlə zərər vurub. Nəticədə ilkin məlumata görə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb. Yaralılara dərhal ilkin tibbi yardım göstərilib. Hazırda onların həyatları üçün təhlükə yoxdur.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq məqsədilə Kəlbəcər və Laçın istiqamətində yerləşən birlik və qüvvələr tərəfindən dərhal təxirəsalınmaz əməliyyat həyata keçirilib. Əvvəlcə qarşı tərəfin hərəkəti məhdudlaşdırılıb, onun qüvvə və vasitələrinə zərər vurulub. Görülmüş qəti tədbirlər nəticəsində erməni hərbçiləri tərksilah edilərək saxlanılıb, xeyli sayda müxtəlif çaplı silah və külli miqdarda sursat qənimət kimi ələ keçirilib.

Genişmiqyaslı təxribat törətməklə qısa müddətli üstünlüyə nail olmaq istəyən Ermənistan hərbi bölmələrinin hücumu əməliyyat-taktiki baxımından tam iflasa uğrayıb və növbəti dəfə rəsmi İrəvanın təxribat törətmək cəhdi uğursuzluqla nəticələnib.

**16 noyabr 2021 14:09**

Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədində ölkəmizə qarşı genişmiqyaslı təxribatlarını davam etdirir.

Qarşı tərəfin hərbi birləşmələri dövlət sərhədində vəziyyəti daha da gərginləşdirmək məqsədilə Laçın rayonu ərazisində yerləşən bölmələrimiz istiqamətində müxtəlif çaplı minaatan və artilleriya qurğularından atəş açıb.

Ermənistan tərəfinin təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat tədbirlər görülür.

**16 noyabr 2021 14:58**

Ermənistan tərəfinin törətdiyi təxribata cavab olaraq qarşı tərəfə məxsus tank əleyhinə qurğu və minaatan məhv edilib.

Sərhəddə vəziyyət gərgin olaraq qalmaqdadır, hazırda döyüş əməliyyatları davam edir.

Müdafiə Nazirliyi sərhəddəki vəziyyətlə bağlı ictimaiyyəti mütəmadi olaraq məlumatlandıracaq.

# Qarşı tərəf təşviş içində mövqelərini tərk edir

Ermənistan silahlı qüvvələri bölmələrinin əks-həmləsi hərbçilərimiz tərəfindən dəf edilib.

Qarşı tərəfin dövlət sərhədi boyunca istənilən döyüş aktivliyi bölmələrimiz tərəfindən izlənilir.

Erməni hərbi qulluqçularının qorxu və təşviş içində mövqelərini tərk etməsi, şəxsi heyəti arasında çaxnaşma müşahidə edilir.

Ermənistan silahlı qüvvələrinin sərhəd boyu cəmləşdirilən canlı qüvvəsi və hərbi texnikası hədəf altındadır.

Qarşı tərəfə məxsus döyüş texnikası sıradan çıxarılıb.

Əməliyyat taktiki üstünlük Azərbaycan Ordusunun bölmələri tərəfindədir.

Bir daha bəyan edirik ki, sərhəddə baş verən gərginliyə görə Ermənistan hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Zərrə boyda qumun olsam, bəsimdir, Vətən!

## Və ya döyüş mövqeyində gördüklərim, qələmə aldıqlarım...



*Media nümayəndələri olaraq yenə yol üstündəyik. Bu dəfə daha geniş heyətlə və fərqli istiqamətdə yola çıxmışıq. Naxçıvan şəhərindən uzaqlaşdıqca havanın soyuduğunu hiss edirik. Qışı ilk olaraq dağlar qarşılayır axı. Qış da bəyaz örpəyini yorğan kimi dağların üstünə çəkir. Əsl rəssam fırçasını işə salacaq mənzərədir. Ucqar dağ kəndlərində artıq qaz sobaları yandırılır. Yazı-yayı əkib-becərməklə, payızı yığmaqla məşğul olan kəndlinin qış üçün hər bir azuqəsi hazırdır, istilik də ki, öz yerində. Qışın qəfil qonaq kimi gəlişinə artıq alışıb onlar. Kənd mənzərələrini geridə qoyub dolanbac yollarla dağların qoynu ilə irəliləyirik. Yer palçıq olduğundan bəzi yerlərdə avtobusun sükanı sürücünün sözünə baxmır. Amma sürücü də naşı deyil, sükanı özünə "tabe etməyi" bacarır. Nəhayət, mənzil başına çatırıq. Avtobusdan düşən kimi soyuq və küləkli hava iliklərimizə qədər işləyir. "Çox soyuqdur", - deyib əyninə əlavə geyim alanlar da olur.*



Lakin onlar elə dayanıb ki, eynən bu dağlar kimi. Duruşları da, baxışları da sərtdi, möhkəmdi. Sanki bu soyuğun heç onlara dəxli yoxdu. Gənc xanım jurnalistlərin arada pıçıltılarını da eşidirəm: "Görəsən, onlar üşümür?"

Söhbət dağların başında məskən salan, biz gecələr isti ocağımızda rahat yataq deyə keşik çəkən əsgərlərdən gedir. "Oğul düşmən çəpəridir" deyib atalar. Biz də o çəpərin düz yanındayıq. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinin birində. Naxçıvan Muxtar Respublikasının ictimaiyyət, mədəniyyət, Vətən müharibəsinin iştirakçıları ilə birgə şəxsi heyətin sosial-məişət şəraiti və döyüş hazırlığı ilə tanış olduq. Azərbaycan əsgəri döyüş mövqeyində yerləşən bölmələrdə ayıq-sayıq növbətçilik aparır. Eləcə də hava hücumundan müdafiə bölmələrində. Müşahidələr göstərir ki, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı yüksək səviyyədədir. Onları nə qar, nə boran, nə də soyuq qorxutmur. Axı bu Vətən onlara əmanətdir. Göz bəbəyi necə qorunursa, bax, Vətən də elə qorunmalıdır. Şair Zeynal Vəfa bu yerdə yaxşı deyib:

*Demirəm ki, Şahdağına*
*çevrilim,*
*Zərrə boyda qumun olsam,*
*bəsimdir, Vətən!*

Zabit Naib Cəfərov bizi yaradılan şəraitlə tanış edir: "Muxtar respublikada ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsidir ki, yüksək dağ şəraitində yerləşən hissə və bölmələrimizdə də nümunəvi xidmət şəraiti yaradılıb. Dövlətin ordu quruculuğuna ayırdığı diqqət və qayğıdan ruhlanan əsgərlər ilk gündən hərbi biliklərə yiyələnir, öz xidməti vəzifələrini şərəf və ləyaqətlə yerinə yetirirlər. Onlar artıq qalib ordunun əsgərləridir. Bu hiss onları daha da qürurlandırır. Vətənin keşiyində daha əzmlə və məsuliyyətlə dayanmağa sövq edir".

Əslən Qəbələdən olan əsgər Kənan Bilalovla həmsöhbət oluruq. Yaradılan şəraitdən xeyli məmnundur: "Yüksəkliklərdə xidmətin təşkili üçün lazımi şərait yaradılıb. Bundan sonra da əmr və tapşırıqların yerinə yetirilməsinə daim hazır olacaq, Vətənimizin keşiyində ayıq-sayıq dayanacağam".

Əsgər Tofiq İsmayılov döyüş mövqeyində xidmət etməyi ilə qürur duyur: "Torpaqlarımızın işğaldan azad olunması bizdə arxayınlıq yaratmır, bu, əksinə, məsuliyyətimizi birə-beş artırır. Şəhidlərimizin bizə əmanəti olan bu torpaqları qorumaq və gələcək nəsillərə çatdırmaq da bizlərin üzərinə düşən ən ümdə vəzifədir".

### Dağların zirvəsini fəth edən qartallar

14 il Əmir Teymur kimi dünya fatehinə baş əyməyən Əlincə qalasının bu gün başı üzərində qartallar uçur. Bu qartalları qalanı ziyarətə gələn hər kəs görə bilir. Yayda istisi, qışda qarı, çovğunu ilə əzəmətli dağların da qartalı bu oğullardır. Vətənin keşiyində ayıq-sayıq və məğrur dayanan oğullar. Bu oğulların şücaətini 44 günlük Vətən müharibəsində hər kəs gördü. Bu, uşaqkən nağıllarda oxuduğumuz, öyrəndiyimiz qəhrəmanlar deyildi. Hələ illərlə bəhs edəcəyimiz, şəninə nəğmələr qoşacağımız, hekayələr, dastanlar yazacağımız qəhrəmanlar. Öz canları bahasına irəli gedən, ölümün gözünə dik baxan oğullar. Müharibə meydanında "Vətən yaxşıdır" mahnısını oxuyan, yüksək döyüş qabiliyyəti nümayiş etdirən və dillərdə dastan olan oğullar.

Vətən müharibəsi Azərbaycan Ordusunun gücünü bütün dünyaya bir daha nümayiş etdirdi. Əsgəri irəli aparan bu güc idisə, digər tərəfdən də xalqın iradəsi və əzmi idi. Xalq-ordu birliyi qələbənin təmin edilməsində mühüm rol oynadı. Ali Baş Komandanın qətiyyətli mövqeyi müharibəni daha az itki və zəfərlə başa vurmağımıza əsas oldu. Bu gün biz qürur hissi ilə zəfərimizdən bəhs edir, 44 günlük müharibədə igidlərimizin şücaətindən danışır, şəhidlərimiz haqqında yazırıq. Yazırıq ki, gələcək nəsillər də bilsin ki, üzərlərində gəzdikləri torpaq heç də asanlıqla qorunmayıb, asanlıqla azad olunmayıb. Atababalarının qəhrəmanlığı və şəhidlərimizin qanı ilə torpaq olub, Vətən olub, müqəddəsləşib, ülviləşib. Bu müqəddəs yolda neçə-neçə igid can verdi, 30 ilə yaxın sürən torpaq həsrətimizə, Qarabağ nisgilimizə son qoydu. Oğullarımızın can verdiyi mənfur düşmənin dağıtdığı, viranə qoyduğu Qarabağa yeni həyat gələcək. Əminik ki, şəhid qanı ilə suvarılan torpaqlar qısa bir zamanda gülüstana çevriləcək.

### Zəfər yolumuz

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində müsahibəsi zaman Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərildiyini bildirərək deyib: "Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika deyə bilərəm ki, bəlkə də bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə Azərbaycan Ordusuna xaricdən alınan texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı - üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir...

Yəni, Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".

Vətən oğullarının göstərdiyi fədakarlığın nəticəsidir ki, bu gün biz zəfərimizi qeyd edirik. Naxçıvan Qarnizonu qoşunlarında keçirilən "Zəfər yolumuz" adlı silsilə tədbirlərin davamı olaraq iştirakçısı olduğumuz tədbir də yüksək səviyyədə təşkil olunub.

Müharibə iştirakçılarından bir neçəsi ilə həmsöhbət oluruq. "Bu tədbirdə iştirak etmək bizim üçün qürurvericidir. Çünki bu gün əlində silah Vətənin keşiyində duran əsgərlərlə görüşüb onlarla zəfəri birlikdə qeyd etmək başqa bir hissdir. 44 günlük Vətən müharibəsinin hər anı zəfər dolu tarixdir. Bu tarixlə bağlı xidmət edən əsgərlərlə söhbət aparmaq, o torpaqların hansı çətinliklərlə azad olunmasından bəhs etmək, düşünürəm ki, əsgərlərimiz üçün də maraqlı oldu. Qoy onlar bu tarixi məhz müharibə iştirakçılarından eşidib bir daha qürur duysunlar və bilsinlər ki, Azərbaycan Ordusunda xidmət etmək böyük bir şərəfdir", - zabit Təbriz Zeynalov deyir. Bir gözünü Vətən yolunda qurban verən zabitimiz Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Azərbaycan bayrağı" ordeni, "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Dağıstan Hüseynovla söhbətimizi davam etdiririk. Əslən İmişli rayonundan olan Dağıstan Hüseynov döyüşlərin fəal iştirakçısı olub. Xocavəndin bir neçə kəndinin azad edilməsində və Şuşa istiqamətində gedən döyüşlərdə fəallıq göstərib. Qalib ordunun qalib əsgəri kimi xidməti davam etməsilə qürur duyur.

Kiçik çavuş Əziz Şükürov: "Düşməndən azad edilən torpaqlar şəhidlərimizin qanı, qazilərimizin canı bahasına alındı. Mən şəhidlərimizin ruhu və onların valideynləri qarşısında baş əyirəm. Biz şəhidlərimizin qisasını aldıq. Mən bu gün üçrəngli bayrağımıza baxanda bir daha qürurlanıram ki, o bayrağı azad etdiyimiz torpaqlara sancdıq".

Yaradılan şəraitlə tanış olduqdan sonra əsgərlərlə birlikdə Qələbə ruhlu mahnıların sədaları altında yemək süfrəsi arxasında əyləşirik.

### Yenə evim Azərbaycan olacaq!

Zəfər dolu xoşbəxt anlarımızı fotolarda əbədiləşdirib geriyə - şəhərə yol alırıq. Bəyaz örpəyə bürünən dağların başında dağ kimi vüqarla duran igidlərimizə "Vətən sizə əmanət", - deyib ayrılırıq. Ürəyimiz fərəh hissi ilə döyünür. Axı necə döyünməsin? Vətənin zərrə boyda qumu ola bilmək üçün nələr etmərik, nələrdən keçmişik? Zərrə boyda qumu olmaqdan belə qürur duyan Azərbaycanın əzəmətli dağları kimi dağ vüqarlı oğulları var bu Vətənin. Biz Vətəni bax belə sevərik, həm qoruyarıq, həm gülüstana çevirərik. Kimsənin torpağında gözümüz olmaz. Biz haqqı, ədaləti sevərik. Haqq uğrunda candan keçərik. Canımızı fəda edərik, torpaqdan pay verməyərik. Şair nə gözəl deyib:

*Tək mən olsam bu dünyanın*
*sahibi,*
*Yenə evim Azərbaycan olacaq,*
*Azərbaycan olacaq!*

Yol boyu gözümün qarşısından o gözəl mənzərə getmir: Zəngəzuru, onun kiçik bir parçasını gördüm. Dayandığım dağların o biri üzündəki uşaqlıq xatirələrimin yaddaşında saxladığı ana yurdum Zəngəzuru...

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**



*Nümunəvi xidmət*

# “Zəhranın intiqam atəşi ömrümə ömür verdi”



***Leytenant Nemət Ocaqverdiyev Qazaxın Çaylı kəndindəndir. Uşaqlığında da, yeniyetməliyində də ermənilərin nə olduğunu eşidib, görüb. İlk vaxtlar olanların mahiyyətini dolğunluğu ilə dərk edə bilməzdi. Sonralar şəhidlik gördü, şəhidlər gördü, duyumunun ürəyinə saldığı nifrət közü alışdı, böyüdü. Özüylə birlikdə qərarı da böyüyürdü, yəni, mətinləşirdi, dönməzləşirdi.***

Xatırlayıram: bu yaşda gənclərin bir-birinə ünvanladığı suallardan birinin mahiyyəti "Kimsən, kim olacaqsan?" məntiqi sualı olur. Bu mahiyyət deyir ki, gələcəkdə kim olmaq istəyirsən. Kim olmaq, yəni, hansı peşəni seçmək niyyətindəsən.

Nemət həmin suala tərəddüdsüz "Hərbçi olacam!" deyib.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. Kursant olaraq hərb ixtisasının sirlərini mənimsəyib. Çöl təlimlərində də fəallar sırasında olub. 2016-cı ilin Aprel döyüşlərində o da döyüş bölgəsinə göndərilməsini xahiş edib. Ehtiyac olmadığını bildiriblər, "yaxşı oxu, yaxşı zabit ol, zamanında sən də döyüşəcəksən, zabit-komandir kimi..." - deyiblər. Döyüşlərə gedə bilməməsinə görə qanı qaralıbdı, bu kəlmələrə görə bir ürək tutumunca təsəlli yiyəsi olubdu. O gündən daha yaxşı zabit olmaq üçün əlavə kitablar da oxumağa başlayıbdı...

Ali Hərbi Məktəbi 2019-cu ildə bitirdi. Artilleriyaçı kimi ön xətdə hərbi xidmətə başladı. Onda bildi ki, zabit kimi xidmətin özünəməxsusluğu var. Bu özünəməxsusluğu hər zabit dünya duyumuna, aldığı təhsilin səviyyəsinə, məsləhətləri, tövsiyələri qavrama xüsusiyyətinə görə müəyyənləşdirir. Leytenant Nemət Ocaqverdiyev də xidmətini məhz belə qurmağa başladı. Komandir olaraq bu xüsusiyyətləri şəxsi heyətə də aşılayırdı.

"Artilleriyaçı piyadalardan müəyyən xarakterinə görə fərqlənir. Piyada döyüşçülər görünən düşmənlə döyüşür, artilleriyaçı görünməyən, uzaq məsafədəki düşmənlə döyüşür. Digər tərəfdən, artilleriyaçılar həm düşməni müəyyən tələfata uğradır, həm də piyadaların hücumda uğur qazanmasını asanlaşdırır. Sizin yerinə yetirdiyiniz tapşırıqların məsuliyyəti bu baxımdan dəyərləndirilir", - şəxsi heyətə belə deyərdi. Bu, komandir məsləhəti idi...

Vətən müharibəsi başladı. Leytenant Nemət Ocaqverdiyevin komandiri olduğu bölmə də döyüşə qatıldı.

Füzulinin döyüş bölgəsinin yaxınlığında döyüş gedirdi. Bölməyə o istiqamətdə düşmən mövqelərini atəşə tutmaq əmri verildi. Məsafənin uzaqlığı əmrin yerinə yetirilməsini bir qədər çətinləşdirirdi. Əmr yerinə yetirilməli idi. Koordinatlar təshih edildi. Atəş açıldı. Atəşin dəqiqliyini bildirdilər. Sonrakı atışlar düşmənin mövqeyinin "altını üstünə çevirdi".

Komandanlıq bölmənin döyüşü haqqında yaxşı fikirlər deyirdi. Bu şəxsi heyətin qələbə ruhunu xeyli dərəcədə artırırdı...

Döyüşçülərimiz döyüşə-döyüşə qələbələr qazanır, qələbələr qazana-qazana irəliləyirdilər. Artilleriyaçılar da döyüşlər gedən əraziyə təxliyə edilirdilər...

Şəxsi heyət Alxanlı kəndi istiqamətinə köçürüldü. Yeni ərazi ilə xəritə üzərində tanış oldular.

Həmin istiqamətdə düşmənin avtomobil kolonu yaxınlaşırdı. O kolonu dayandırmaq, məhv etmək leytenant Nemət Ocaqverdiyevin komandiri olduğu bölməyə tapşırıldı. Gənc leytenant əmrin mahiyyətini şəxsi heyətə izah etdikdən sonra nəyisə xatırladı:

- 2017-ci il iyulun 4-də Ermənistan silahlı birləşmələri mülki əhalini 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. 14 aylıq Zəhra həlak oldu. İlk atəş onun qisasıdı. Atın!

O gün düşmənin sığındığı mövqe də darmadağın edildi...

Vətən müharibəsi Zəfərlə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi.

...Leytenant Nemət Ocaqverdiyev dedi ki, Vətən müharibəsində ömrümə ömür verən atəş - Zəhranın intiqam atəşi oldu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

---

# Qalib ordunun əsgəri olmaq şərəfdir



***Bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. Bütün sahələrdə olduğu kimi, Azərbaycan Ordusunda da xidmət edən gənclər göstərilən etimadı və güvəni layiqincə doğrultdurlar. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantı rəşadətli Azərbaycan Ordusu olduğu kimi, ordunun bel sütunu da nümunəvi xidmət edən gənclərimizdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər bir daha sübut etdi ki, gücünü Vətən sevgisindən alan, mübariz Azərbaycan gəncliyi Vətənimizi qorumağa və bu yolda canını qurban verməyə daim hazırdır.***

...Gəncliyimizin uğurları, vətənpərvərliyi, dövlətimiz qarşısında təqdirəlayiq xidmətləri kəlmələrə sığmayacaq qədər böyük və əvəzsizdir. Azərbaycan gəncliyindən əbəs yerə söz açmadım. Bu mövzuda yazmağımın əsas səbəbkarları ötən il düşməndən azad olunan ərazilərimizdə olarkən tanıdığım əsgərlərimizdir. Onlarla xidmət etdikləri bölmədə söhbətləşdim. Xidmətin təşkili, əsgərlərin gündəlik fəaliyyəti, sosial-məişət şəraiti haqqında məsul zabitlə söhbət edib, ərazi ilə tanış oldum. Müşahidə postlarına tərəf irəlilədik. Növbədə olan iki əsgərlə salamlaşdım. Zabit onların xidmətlərindən razı olduğundan, bölməyə gələn gündən verilən tapşırıqların öhdəsindən bacarıqla gəldiklərindən, məsuliyyətli və bacarıqlı olmalarından ağız dolusu danışdı. Zabit ürəyimdən xəbər almışdı. Sanki "Nümunəvi xidmət" rubrikasına yazı hazırlamaq istədiyimi bilirdi. O həm əsgərlərindən qürurla danışdı, həm də "Nümunəvi xidmət" rubrikasının budəfəki obrazları ilə bizi tanış etdi. Artıq dəftərimdə qeydlərimi aparırdım... Fotomüxbirimiz də iş başında idi. Müşahidə aparan əsgərlərin şərəfli xidmətlərini ölümsüzləşdirmək məqsədilə tarix yazanların obrazını tarixləşdirirdi. İgidlərimizi yaxından tanımaq üçün növbələrinin başa çatmağını gözlədik. Ağaclardan birinin altında da əyləşdik, bu ərazilərdə gedən qızğın döyüşlərdən, ordumuzun şanlı qələbəsindən, döyüş xatirələrindən danışdı zabit. Gözümün önündə canlanan mənzərə ilham qaynağım olurdu. Kəndin gözəl təbiəti, təmiz havası, 30 ildən sonra bu torpaqlarda dalğalanan üçrəngli bayrağımız və qalib Azərbaycan əsgəri... Baxdıqca qürurlanır, qürurlandıqca qələmə alıb yazıb-yaratmaq istəyir insan.

...Vaxtın necə keçdiyinin fərqinə varmadım. Zabitin maraqlı söhbəti, mənzərənin ağuşunda düşüncələrə qərq olmağım bir saatdan çox vaxtın necə keçdiyini hiss etdirmədi. Artıq əsgərlərin növbəsi başa çatdı. Silahlarını təhvil verib yanımıza gəldilər. Onlara da çaydan süzüb əyləşmələrini xahiş etdim. Hər birini daha yaxından tanıdım. Fariz Cabbarov və Rüfət Buludzadəyə komandirlərinin onlar haqqında dediyi xoş sözləri çatdırdım. Hər ikisinin qəməti dikəldi, sinələri qabardı. Simalarını saran təbəssümdən sevindikləri və qürurlandıqları hiss olunurdu. Fariz 2002-ci il sentyabrın 29-da Neftçala rayonunda anadan olub. Birinci Qarabağ döyüşlərində şəhid olan Elton Həbibov adına orta məktəbdə təhsil alıb. Vətənin keşiyində inamla dayanmağı özünə mənəvi borc bildiyini deyən Farizin arzusu dənizçi olmaqdır. "Əsgər kimi komandirim tərəfindən müsbət qiymətləndirilmək çox sevindiricidir. Xidmətə gəldiyim ilk gündən nümunəvi olmağa, verilən tapşırıqları bacarıqla yerinə yetirməyə çalışmışam. Bizə Vətənimizin keşiyində dayanmaq kimi məsuliyyətli və şərəfli vəzifə həvalə olunub. Bu vəzifənin öhdəsindən Vətənə layiqli övlad kimi gəlirik. Sağ olsun dövlətimiz bizim üçün hər cür şərait yaradıb. Təminatımız yüksəkdir. Bu ərazilər qardaşlarımızın canı bahasına düşməndən azad olunub. Ona görə də ərazi bütövlüyümüzü inamla qorumaq hər birimizin müqəddəs vəzifəsidir. Hərbi xidmətimi uğurla başa vurduqdan sonra dənizçi peşəsinə yiyələnmək istəyirəm. Dənizçi olmaq uşaqlıq arzumdur. Bu arzum artıq ikiistiqamətlidir. Həm hərbçi, həm də dənizçi olmaq qərarına gəlmişəm. Xidmətimi başa vurub valideynlərimin də xeyir-duasını aldıqdan sonra Hərbi Dəniz Qüvvələrinə müraciət edəcəyəm. Şərəfli peşə sahiblərinin sırasında olacam".

Farizin arzuları ilk bahar xatırladır. Tumurcuqdan yenicə baş qaldıran qönçələrin yazın gəlişindən muştuluqçu olması kimi, onun da belə həvəslə, sevgi və istəklə danışması çiçəklənən arzularının barından, bərəkətindən xəbərçi olur. Farizin arzularının çin olacağına bir əminlik yaranır. İnşallah, yaxın gələcəkdə Hərbi Dəniz Qüvvələrinin nümunəvi miçmanı kimi ondan yazı hazırlayacam. Farizə uğurlar arzulayıb Rüfət Buludzadənin də düşüncələrini öyrəndim.



Rüfət də Farizlə həmyaşıddır - 2002-ci il oktyabrın 15-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğulub boya-başa çatdığı Biləsuvarda dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra Göyçay Dövlət İdarəetmə və Texnologiya kollecinə daxil olub. Təhsilini dondurараq hərbi xidmətə yollanıb. Düşüncələrinə "Fəxr edirəm ki, qalib Azərbaycan Ordusunun əsgəriyəm" sözləri ilə başladı. "Ötən il döyüşlər gedən zaman hərbi xidmətə çağırıldım. Hələ təcrübəsiz olduğumuz üçün bizi döyüş meydanına aparmadılar. Təlim mərkəzlərində hazırlıq keçirdik. Lakin ürəyimiz cəbhədə döyünürdü. Silahlanıb döyüşlərə qatılmaq üçün həvəslə məqam gözləyirdik. Yüzlərlə mənim kimi gənc əsgər torpaqlarımızın azadlığı uğrunda, bu şərəfli yolda şücaət göstərməyə hazır idi. Döyüşlər Böyük Qələbəmizlə başa çatdıqdan sonra bu bölməyə təyin olundum. Silahdaşlarımızın can verdiyi bu yerlərin keşiyində dayanmaqdan fərəhlənirəm. Şəhidlərimizin, qazilərimizin əmanətini göz bəbəyimiz kimi qoruyuruq. Onların hər birinin qəhrəmanlığı bizə örnəkdir. Zəfər tariximizi və bu tarixi yazanların əziz xatirəsini daim yaşatmaq və gələcək nəsillərə ötürmək də bizim mənəviyyat borcumuzdur. "Keçmişini unudanın gələcəyi olmaz" deyirlər. Öz qəhrəmanlıqları ilə bizə hər zaman qürurla xatırlayacağımız bir keçmişi xəzinə qoyan igidlərimizi heç vaxt unutmayacaq, onlar kimi vətənpərvər, milli-mənəvi dəyərlərimizə bağlı, dövlətimizə və millətimizə sadiq gənclər olacağıq".

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Əlahiddə Ümumqoşun Orduda gənc zabitlərlə təlim-metodiki toplantı keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Əlahiddə Ümumqoşun Orduda keçirilən təlim-metodiki toplantıya Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bu il bitirən, hərbi hissələrdə müvafiq vəzifələrə təyin olunaraq xidmətini davam etdirən gənc zabitlər cəlb ediliblər.



Zabitlərin taktiki biliklərinin, qərar qəbuletmə bacarıqlarının artırılması və xidmətə düzgün istiqamətləndirilməsi üçün toplantının planına uyğun olaraq real döyüş şəraitinə yaxın məşğələlər təşkil edilərək keçirilib.

Müxtəlif hərbi ixtisaslar üzrə praktiki bacarıqları yoxlanılan gənc zabitlər nəzəri dərslərdə də iştirak ediblər. Nəzəri dərslərdə əsas diqqət şəxsi heyətin psixoloji hazırlığına və 44 günlük Vətən müharibəsində düşmənlə informasiya qarşıdurması zamanı qazanılan nəticələrə yönəldilib.

Toplantıya cəlb edilən zabitlərdən ümumqoşun, ixtisas və fiziki hazırlıqdan məqbullar götürülüb, zabitlərin fiziki dözümlülüyü yoxlanılıb.

Təlim toplantısı yekun tədbiri ilə başa çatıb. Tədbirdə gənc zabitlərin yüksək nəticələr göstərdikləri qeyd edilib və toplantının əhəmiyyətindən danışılıb.

# İşğal olunan ərazilərimizdə Ermənistanın ekoloji terroru və ətraf təbii mühit



Azərbaycan Respublikası beynəlxalq terrorizmə qarşı mübarizədə fəal iştirak edən dövlətlər sırasındadır. Ölkəmizdə istər daxili, istərsə də xarici terrorizmə qarşı güclü mübarizə siyasəti yürüdülür.

Hər hansı bir dövlətdə ekoloji tarazlığın pozulmasına yönəldilən terror aktları ekosidin tərkib hissəsi olub, ekoloji problemlərin yaradılması məqsədini güdür. Ekoloji terrorizmin qarşısının alınmasında əsas məqsəd əhalinin ekoloji təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin qorunması və canlıların tələfatına yol verməməkdir.

Hər hansı bir ölkə və yaxud şəxslər tərəfindən bilərəkdən digər ölkənin təbiətinə, flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə vurulan ziyan ekoloji terror hesab edilir.

1988-ci ildən başlayaraq ermənilərin və onlara havadarlıq edən qüvvələr tərəfindən Azərbaycana qarşı başlanan müharibə, torpaqlarımızın 30 ilə yaxın işğal altında qalması ilə nəticələnən, şəhər və kəndlərin dağıdılmasına, dinc əhalinin genosidinə və eyni zamanda, bitki və heyvanlar aləminin məhv edilməsinə səbəb olub. Hərbi münaqişə və müharibə yalnız Azərbaycan Respublikasının ərazisində aparıldığından atmosfer, su mənbələri və torpaqlarımız bioloji, kimyəvi və fiziki çirklənməyə məruz qalıb.

Ermənistan bütövlükdə Qafqaz regionunda etnik təmizləmə siyasətini həyata keçirən işğalçı dövlət olmaqla yanaşı, həm də mülki əhaliyə qarşı terror aktlarının həyata keçirilməsində müstəsna rol oynayan və terroru dəstəkləyən bir dövlətdir. Ermənistan Respublikasının döyüşlər zamanı istifadəsi, tətbiqi qadağan edilən müxtəlif növ döyüş sursatlarından və ballistik raketlərdən də dinc əhaliyə qarşı istifadə etməsi öz təsdiqini tapıb. Belə ki, istifadəsi və tətbiqi qadağan edilən OTR-21 "Toçka" və "Skad" bu kimi ballistik raketlərdən dinc əhaliyə qarşı (Gəncə, Mingəçevir, Bərdə, Tərtər) 2020-ci ilin oktyabr-noyabr aylarında istifadə edilib.

Ermənistan 30 ilə yaxın müddət ərzində işğal edilən ərazilərin təbii sərvətlərinə və ətraf təbii mühitinə bərpası mümkün olmayan külli miqdarda ziyan vurub. İşğal olunan ərazilərin təbii sərvətləri işğalçı dövlətin himayədarlığı nəticəsində müxtəlif şirkətlər tərəfindən qanunsuz istismara məruz qalıb və talan edilib. Həmin ərazilərin ətraf təbii mühitinə vurulan ziyan, regionda ekoloji tarazlığın pozulmasına səbəb olub. İşğala məruz qalmış yaşayış məntəqələrimiz erməni silahlı birləşmələri tərəfindən qarət edilib, evlər dağıdılıb, su, elektrik, qaz və digər kommunikasiya xətləri isə tamamilə sıradan çıxarılıb. Respublika əhəmiyyətli dəmiryolu xətləri sökülüb və yararsız hala salınıb. Ümumiyyətlə, Ermənistan tərəfindən ekoloji terrora məruz qalan Azərbaycan əraziləri regional ekoloji fəlakət zonasına çevrilib.

Ermənistan silahlı qüvvələri işğal etdiyi ərazilərdə ətraf təbii mühitin mühafizəsinə dair qəbul olunan beynəlxalq normativ hüquqi sənədlərə və qanunlara tərəfindən əməl edilməyib. Belə ki, işğaldan azad edilən ərazilərdə monitorinq zamanı təbii sərvətlərimizin talan edilməsinin, meşələrdə çoxillik qiymətli ağacların kəsilməsinin (daşınmasında Ermənistan silahlı qüvvələrinin şəxsi heyətindən və ona məxsus olan hərbi texnikadan istifadə edilib) bir daha şahidi olduq. Qazax rayonu istiqamətində, Murov dağ silsiləsi boyu, Ağdərə istiqamətində Talış, Gülüstan, Baranbart meşə ərazisində 100 hektarlarla sahədə fıstıq, saqqız, göyüş, şam, palıd və s. çoxillik ağaclar kəsilib və Ermənistana daşınıb. Qeyd edilən ərazilərdə təmas xəttində meşə sərvətlərinin talan edilməsi işinə birbaşa işğalçı ordunun hərbi qulluqçuları tərəfindən rəhbərlik edilib.

Düşmən tərəfindən döyüş mövqelərində hərbi hissələrin və hərbi texnikanın yerləşdirilməsi, mühəndis-istehkam qurğularının inşası, şəxsi heyətin və texnikanın manevr etməsi məqsədilə əlaqələndirici yolların çəkilişi, torpaq qazıntı işlərinin aparılması zamanı ağac və kolların qırılması, otlaq sahələrinin yandırılması və s. nəticəsində flora və faunaya ciddi ziyan dəyib. Həmin ərazilərdə düşmən ordusu tərəfindən görülən işlər Azərbaycan təbiətinin məhvinə səbəb olan ekoloji terror aktı kimi qiymətləndirilməlidir.

2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsinin qələbə ilə başa çatması torpaqlarımızın işğaldan azad edilməsinə, həm də ekoloji terror aktlarının həyata keçirilməsinə son qoydu.

Müdafiə Nazirliyinin Tibb İdarəsinin ekoloq mütəxəssisləri döyüşlər zamanı azad edilən ərazilərə, eləcə də raket zərbələrinə məruz qalan Gəncə, Mingəçevir və Bərdə şəhərlərinə ezam olunaraq ekoloji monitorinqlər aparıb, torpaq və su mənbələrindən götürülən nümunələrin ekoloji laboratoriyada fiziki, kimyəvi və bioloji analizləri aparılıb.

Monitorinq zamanı işğaldan azad edilən rayon mərkəzlərinin, şəhər, qəsəbə və kəndlərin ermənilər tərəfindən tamamilə dağıdılması, yol kənarlarındakı ağac və kol bitkilərinin isə kəsilərək məhv edilməsi müəyyənləşdirilib. Qəsdən törədilən yanğınlar nəticəsində isə meşə və yaşıllıq massivləri yox edilib.

İşğal olunan ərazilərin azad edilməsi zamanı Şuşa istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən istifadəsi qadağan edilən müxtəlif növ döyüş sursatlarının tətbiqi nəticəsində ətraf təbii mühit fiziki və kimyəvi çirklənməyə məruz qalıb. Qadağan olunan ağ fosfor bombalarından istifadə etməklə anti-humanist üsullarla - digər zəhərli partlayıcı maddələrdən ərazilərimizi işğaldan azad edən ordumuza, həm də flora və faunaya külli miqdarda ziyan vurulub.

22-23 sentyabr 2021-ci il tarixdə Litva Respublikası Silahlı Qüvvələri tərəfindən "Şərq Tərəfdaşlığı çərçivəsində ətraf mühitin mühafizəsi"nə dair keçirilən onlayn seminarda Tibb İdarəsinin də hərbi ekoloq mütəxəssisləri iştirak edib, Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan ekoloji terror aktları barədə seminar iştirakçılarına faktlar əsasında geniş məlumat verilib və Ermənistanın yalnız Cənubi Qafqaz regionunda deyil, bütün bəşəriyyət üçün təhlükəli olan ekoloji terrorçu bir dövlət olması diqqətə çatdırılıb.

**Ehtiyatda olan polkovnik Adil MƏMMƏDOV**
**Müdafiə Nazirliyinin Tibb İdarəsi**
**biologiya üzrə fəlsəfə doktoru**

# Xəbərlər: hadisələr, faktlar

## Ukrayna ABŞ-dan təqribən 80 ton döyüş sursatı alıb



Amerika Birləşmiş Ştatlarından Ukraynaya müdafiə sahəsində yardım kimi təqribən 80 ton döyüş sursatı şəklində növbəti, dördüncü partiyası daxil olub.

Bu məlumat ABŞ-ın Ukraynadakı səfirliyinin feysbuk səhifəsində dərc edilib.

Məlumatda deyilir: "Bu gün Ukrayna Birləşmiş Ştatlarından 80 min kiloqrama yaxın döyüş sursatı alıb. Bu, Prezident Baydenin Ukraynaya avqustda göndərdiyi 60 milyon ABŞ dolları həcmində əlavə yardım çərçivəsində dördüncü partiyadır".

Səfirlikdən onu da xatırladıblar ki, 2014-cü ildən bəri ABŞ Ukraynaya təhlükəsizlik sahəsində 2,5 milyard dollardan artıq yardım göstərib.

Yardımın bundan əvvəlki iki partiyası Ukraynaya oktyabrın 10-da və 18-də çatdırılıb. Əvvəl razılaşdırılan 250 milyon dollar həcmində yardımdan əlavə Ukrayna amerikalı tərəfdaşlardan daha 60 milyon dollar dəyərində tibbi avadanlıq, zəruri döyüş sursatı, yüksək dəqiqliklə silahlar və radiolokasiya müşahidə vasitələri alır.

## İngiltərənin Liverpul şəhərində partlayış baş verib



İngiltərənin Liverpul şəhərində ginekoloji xəstəliklərə xidmət göstərən Liverpul Qadın Xəstəxanasının yaxınlığında yerləşən avtomobildə partlayış baş verib.

Partlayış nəticəsində bir nəfər ölüb, bir nəfər isə yaralanıb. Hadisə ilə bağlı üç nəfər həbs edilib. Ölən şəxsin kimliyi hələ ki, müəyyən olunmayıb.

## Hindistanda terrorçular zabiti, onun ailə üzvlərini və daha dörd hərbçini öldürüblər



Hindistanın şimal-şərq ştatı Manipurda naməlum terrorçular quru qoşunlarının konvoyuna hücum ediblər.

NDTV telekanalı xəbər verir ki, hücum nəticəsində Hindistan quru qoşunlarının polkovniki, onun arvadı və oğlu, həmçinin daha dörd hərbi qulluqçu həlak olub.

Telekanalın məlumatına görə, terror aktı Myanma ilə sərhədin yaxınlığındakı Çuraçandpur dairəsində "Assam atıcıları" adlı elit batalyonun bölməsi ön düşərgədəki mövqedən qayıdarkən baş verib. Hücum yeri əhatəyə alınıb, ərazidə ekstremistlərin axtarışı gedir.

Manipurda bir neçə separatçı qruplaşma fəaliyyət göstərir, hələlik, onların heç biri hücumun məsuliyyətini üzərinə götürməyib.

## Belarusda iki Rusiya hərbçisi həlak olub



Belarusda iki Rusiya hərbçisi həlak olub.

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilir ki, Belarusun Qrodno şəhərində döyüş hazırlığının yoxlanışı zamanı desantçılardan ikisinin paraşütü açılmayıb. Onlardan biri ehtiyat paraşütdən istifadə edərək yoldaşını xilas etməyə çalışsa da, yerə qədər olan qısa məsafə buna imkan verməyib.

Hərbçilər müxtəlif dərəcəli yaralarla xəstəxanaya çatdırılıblar, lakin həkimlər onların həyatını xilas edə bilməyiblər. Həlak olan hərbçilərin müqavilə ilə xidmət etdikləri bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# Sağlam, güclü və mübariz əsgərlər

Rəşadətli və yenilməz ordumuzun sıralarında xidmət edən əsgərlərin fəaliyyəti günün nizam qaydaları ilə tənzimlənir. Şəxsi heyətin gündəlik fəaliyyətindən danışdıqda fiziki hazırlıq saatlarını mütləq qeyd etməliyik. Çünki fiziki hazırlıq əsgərlərin həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığının möhkəmləndirilməsinə istiqamətlənən əsas fəaliyyət prosesidir. Əsgərlər bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər möhkəm, güclü və sağlam olarlar. Yüksək fiziki hazırlıq onların döyüş qabiliyyətinə də müsbət təsir göstərir. Mütəmadi idmanla məşğul olan hərbi qulluqçu daha dözümlü, yüksək əhval-ruhiyyədə olur, verilən tapşırıqları daha çevik və dəqiq yerinə yetirir. Bu səbəbdən də ordumuzda şəxsi heyətin fiziki hazırlığına xüsusi diqqət yetirilir. Hərbi hissələrdə zabit və əsgərlərin fiziki hazırlıqla məşğul olması üçün müasir idman avadanlıqları ilə təchiz olunan idman şəhərcikləri, trenajor otaqları fəaliyyət göstərir. Bunlarla yanaşı, müxtəlif idman turnirləri və birinciliklər keçirilir. Belə kütləvi idman tədbirləri şəxsi heyətin idmana olan marağını daha da artırır, fiziki hazırlığın yüksəldilməsində müsbət rol oynayır.

Fiziki hazırlığın mahiyyətini başa düşən əsgərlər bədən tərbiyəsinə xüsusi diqqət göstərir, yüksək həvəslə məşq edirlər. Şəxsi heyət idman saatlarında fiziki göstəricilərini artırmağa səy göstərir.

"N" hərbi hissəsində fiziki hazırlıq məşğələsinin səmərəli təşkilinin şahidi olduq. Hərbi hissənin zabiti Bülbül Qocayev ordumuzun qələbəsi ilə başa çatan



İkinci Qarabağ döyüşlərindən danışdı. O bildirdi ki, fiziki möhkəmliyin döyüş hazırlığının tərkib hissəsi olduğu döyüş meydanında bir daha təsdiqini tapdı. "Tarixi zəfərimizlə başa çatan Vətən müharibəsində şəxsi heyətin dözümlülüyü, mübarizliyi, çevikliyi qələbəni təmin edən əsas amillərdən oldu. Bu müsbət vərdişlər də mütəmadi idmanla məşğul olduqda qazanılır. Əks-hücuma keçən ordumuzun şəxsi heyətinin düşmən üzərinə sürətli sıçrayışı, cəld manevrlər etməsi, əlbəyaxa döyüş... və digər tapşırıqların öhdəsindən bacarıqla gəlməsi fiziki hazırlıqlarının da yüksək olduğunu göstərir. Bu gün də şəxsi heyətin fiziki hazırlığını ciddi nəzarətdə saxlayır, onların sağlam və güclü olması, həmçinin idmana maraqlarının artırılması üçün müxtəlif tədbirlər görürük".

...Geniş və idman qurğuları ilə zəngin şəhərcikdə bir qrup əsgər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Nicat Ələkbərovun nəzarəti altında bədən tərbiyəsi ilə məşğul idi. Növbə ilə turnikdə, paralel qollarda və pres qurğuda əzələlərini məşq etdirirdilər. Hər biri əzmkarlıqla və həvəslə göstərişləri icra edirdi. Nicat Ələkbərov Talış və Suqovuşan kəndlərinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərin iştirakçısıdır. Müharibədən sonra dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Çavuş əsgərlərdən razılığını bildirdi. Onların idmana həvəsli olduqlarını, yorulmadan məşq etdiklərini dedi. "İdman ilk növbədə sağlamlıqdır. Sağlam bədəndə isə sağlam ruh olur. Ona görə də idmanla məşğul olmaq şərtdir. Gündə ən azı 1-2 saat idman hərəkətləri etməliyik ki, bədənimiz sağlam və möhkəm olsun. Virusların, xəstəliklərin yayıldığı günlərdə isə idmanın vacibliyi bir daha ön plana çıxır. Əsgərlərimizin də hər biri bunları yaxşı anlayır, idmana sevgi bəsləyir. Günün nizam qaydalarına uyğun olaraq fiziki hazırlıq dərslərində yorulmadan idmanla məşğul olur, fiziki güclərini artırır, sağlamlıqlarının qeydinə qalırlar. Hərbi hissəmizdə də şəxsi heyətin idmana marağının artırılması istiqamətində mütəmadi işlər aparılır, bölük və taborlararası futbol, voleybol yarışları keçirilir, fərdi idman növlərində birinciliklər təşkil olunur. Belə tədbirlər də şəxsi heyəti idmanla daha mütəmadi məşğul olmağa sövq edir".

Əsgərlər arasında xidmətə gəlməzdən əvvəl peşəkar və həvəskar idmanla məşğul olanlar da var. Boks üzrə yeniyetmələr arasında birinciliyi olan Rauf Vəliyev, güləş üzrə həmyaşıdları arasında bir neçə dəfə uğur qazanan Elnur Nacarov, cüdo ilə həvəskar məşğul olan Rihad Sarıyev və başqaları hərbi hissədə fiziki hazırlıq üçün hər cür şəraitin yaradıldığını vurğuladılar. Hər biri qrup rəhbərinin dediyi sözləri təsdiqləyərək, idmanın həyatımızda mühüm və vacib yeri olduğundan danışdı. Bacarıqlı əsgərlər kimi formalaşmaq üçün fiziki hazırlıqlı olmağın şərt olduğunu dedilər. "Gündəlik döyüş hazırlığı məşğələlərində, təlimlərdə və digər bütün fəaliyyətlərimizdə fiziki hazırlığın önəmi hiss olunur. Bir sözlə, digər bütün tapşırıqlar da fiziki göstəricilərimizdən bilavasitə asılı olur. Sağlam əsgər idman hərəkətlərini yorulmadan və cəld yerinə yetirir, eləcə də yüksək əhval-ruhiyyədə olur".

Əsgərlər, həmçinin ötən ilin bu günlərində "Dəmir yumruq" əməliyyatlarında torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizdən söz açaraq, onları heç vaxt unutmayacaqlarını, xatirələrini hər zaman dərin ehtiramla yad edəcəklərini vurğuladılar.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# Zirehli BMM-80 tibb maşını

Çoxməqsədli zirehli BMM-80 üzən tibb maşını çətin keçilən ərazilərdə, müxtəlif iqlim şəraitində hərəkət edə bilir. Bu maşın 1990-cı ilin əvvəlində Qorki adına avtomobil zavodunda ZTR-80-nin bazasında istehsal olunmağa başlanılıb. Maşından döyüş gedən ərazilərdə yaralıların axtarışı, toplanması, təxliyə edilməsi və onlara ilkin təcili tibbi yardım göstərilməsi üçün istifadə edilir.

Zirehli tibbi maşın rabitə vasitələri ilə, kütləvi qırğın silahından qorunmaq üçün sistemlə, su çəkmə vasitələri ilə, həmçinin nasoslarla, silahların saxlanması üçün yerlə təchiz edilib. Maşın yağışdan və gündən qorunmaq üçün örtüklə, yaralıları yerləşdirmək üçün ayrıca çadırla da təmin olunub. Bundan başqa, tibb maşınında xərəklərin qoyulması üçün qur-



ğular, tibbi ləvazimatların yerləşdirilməsi üçün qutu və stellajlar, 40 litrlik su çəni, kəmərlə bağlanan altıyerlik oturacaqlar, dirsəklə idarə olunan kranlı əlüzyuyan və seyf də var.

Tibb maşınının bir çox variantları da - BMM-1 döyüş meydanından yaralıların təxliyəsi, BMM-2 taborun tibb məntəqəsi, BMM-3 həkim briqadasının mobil (səyyar) soyunma otağı və başqa yardımçı komplekslər mövcuddur.

Maşının çəkisi 13600 kiloqram, təkər formulası 8x8, uzunluğu 7700 mm, eni 2900 mm, hündürlüyü 2630 mm-dir. Mühərrikin gücü 260 at gücündədir. Şose yolda maksimal hərəkət sürəti saatda 80 km, üzmədə isə saatda 9 km-dir. Çətin maneələri keçməyə də qadirdir. Güllə əleyhinə möhkəm zirehlənib. Heyəti üç nəfər və 9 nəfər də təxliyə olunandan ibarətdir. Zirehli BMM-80 tibb maşını radiostansiya, danışıq qurğusu, kəşfiyyat vasitələri və başqa cihazlarla təchiz olunub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qızıl əlcək" klubunun üzvü Nihad Tağızadə Avropa birinciliyinin qalibi olub



Monteneqronun Budva şəhərində gənclər və yeniyetmələr arasında kikboksinqin WAKO versiyası üzrə Avropa birinciliyi keçirilib.

Qitə birinciliyində "Qızıl əlcək" klubunun yetirməsi, yığma komandamızın üzvü Nihad Tağızadə (51 kq) uğurla çıxış edib. Finaladək bütün rəqiblərini mübarizədən kənarlaşdıran idmançımız həlledici mərhələdə Rusiyanı təmsil edən erməni əsilli Eduard Markaryan üzərində inamlı qələbə qazanaraq qızıl medala layiq görülüb.

## Taekvondoçularımız Avropa birinciliyini iki qızıl, bir bürünc medalla başa vurublar



Bosniya və Herseqovinada gənclər arasında təşkil olunan Avropa birinciliyi başa çatıb.

Qitə birinciliyində uğurla çıxış edən Azərbaycan komandası iki qızıl, bir bürünc medal qazanıb. Belə ki, komandamızın üzvləri Seyyad Dadaşov (51 kq) və Zemfira Həsənzadə (42 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Yığmamızın digər üzvü Pünhan Mürsəlov (45 kq) isə bürünc medal qazanıb.

Qeyd edək ki, yığma komandamız Avropa birinciliyində 15 idmançı ilə təmsil olunub.

## Bədii gimnastımız Arzu Cəlilova İspaniyada gümüş medal qazanıb



Bədii gimnastika üzrə yığma komandamızın üzvü Arzu Cəlilova İspaniyanın Barselona şəhərində keçirilən beynəlxalq turnirdə gümüş medal qazanıb.

Təmsilçimiz beynəlxalq turnirdə bir çox titullu idmançıları üstələyərək gürzlərlə çıxışına görə fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

A.Cəlilova çoxnövçülük yarışlarında isə dördüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, gimnastımız bu yarışda təşkilatçıların dəvəti əsasında iştirak edib.

## Azərbaycanın yeniyetmə qılıncoynadanı Türkiyədə bürünc medala sahib olub




Azərbaycanın qılıncoynatma üzrə yeniyetmə qız sablyaçılardan ibarət milli komandası İstanbulda keçirilən "Yıldızlar Kılıç Circuit" turnirində iştirak edib.

Təmsilçilərimizdən dünya birinciliyinin mükafatçısı Zərifə Hüseynova şəxsi yarışlarda bürünc medal qazanıb.

Qrup mərhələsini 4 qələbə ilə başa vuran Z.Hüseynova pley-offda Türkiyə və Bolqarıstanı təmsil edən rəqiblərinə qalib gələrək ən güclü 8-liyə yüksəlib. Burada türkiyəli sablyaçı Gökce Sena Üstünə 10:15 hesabı ilə uduzan qılıncoynadanımız 100-dən çox idmançının qatıldığı yarışda bürünc medala layiq görülüb.

Turnirdə görüşləri idarə edən hakimlər arasında gənc hakimimiz Cavanşir Ağakişiyev də olub.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Quliyev Etibar Qara oğluna məxsus № 054112 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Vahid MƏHƏRRƏMOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 754
Nüsxə 4044